# ŞƏXSİ MƏŞQÇİLƏRİN MİLLİ KOMANDALARIN TƏLİM-MƏŞQLƏRİNDƏ İŞTİRAK QAYDALARININ MÜƏYYƏN EDİLMƏSİ



VERSİYA: 1 FEVRAL 2024

# ƏMR

## № 135/3-2-3/2024

**Bakı şəhəri** **"01" fevral 2024-cü il**

**"Şəxsi məşqçilərin milli komandaların təlim-məşqlərində iştirak qaydalarının müəyyən edilməsi"**

"Azərbayan Cüdo Federasiyası" İctimai Birliyinin (bundan sonra Federasiya) cüdo idman növü ilə məşğul olan müxtəlif kateqoriyalı idmançılarının məşq prosesini pozmamaq və ya mənfi təsir göstərməmək üçün milli komandaların təlim-məşqlərində şəxsi məşqçilərin iştirakı qaydalarının tənzimlənməsi məqsədilə, İctimai Birliyin Nizamnaməsinin 35-ci maddəsini və İcraiyyə Komitəsinin 21.12.2021-ci il tarixli 04 nömrəli Qərarını rəhbər tutaraq,

Cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində keçirilən məşqlərdə şəxsi məşqçilərin iştirakı qaydalarını müəyyən etmək məqsədilə,

Şəxsi məşqçilərin vacib məsələlər ilə bağlı milli komandaların baş məşqçiləri və ya hər hansı milli komanda məşqçisi ilə əlaqə saxlamaq və öz idmançılarının məşqlərini izləmək hüququnu tanıyaraq,

Federasiyanın milli komanda üzvləri olan idmançılara mümkün ən münbit abu-havanın yaradılması üçün şəxsi məşqçilər ilə iş birliyinə xüsusi önəm verməsini, hər hansı şəxsi məşqçinin tənqid və ya müzakirə etməli mövzusu varsa, müvafiq milli komandanın baş məşqçiləri və ya milli komandaların məşqçiləri ilə görüş təyin etməkdə özlərini sərbəst hiss etməli olduqlarını, Federasiyanın şəxsi məşqçilərdən milli komandaların fəaliyyətini tam dəstəkləməli olduqları gözləntilərini nəzərə alaraq,

**əmr edirəm:**

1. Şəxsi məşqçilər hər çərşənbə axşamı (həftənin 2-ci günü) axşam məşqlərində kişilərdən, qadınlardan, gənc oğlanlar və qızlardan, yeniyetmə oğlanlar və qızlardan ibarət milli komandaların məşqlərində iştirak edə bilərlər. Şəxsi məşqçilər əsas məşq zalında məşq prosesini zalın üstündəki eyvandan, ikinci məşq zalında isə tataminin kənarında müəyyən edilən hissədən izləməli və onlar heç bir şəkildə məşq prosesinə təsir göstərməməlidirlər.

2. Kişilərdən və gənc oğlanlardan ibarət milli komandaların məşqlərində iştirak etmək istəyən şəxsi məşqçilər Qurban Hüseynovla (+994 51 833 77 66), qadınlardan, gənc və yeniyetmə qızlardan ibarət milli komandaların, həmçinin yeniyetmə oğlanlardan ibarət milli komandaların məşqlərində iştirak etmək istəyən şəxsi məşqçilər İsmət Cavadovla (+994 55 590 70 18) məşq günündən ən az 4 (dörd) gün öncə iştirakları ilə bağlı əlaqə saxlamalıdır. Şəxsi məşqçilərin məşqlərdə iştirakı yalnız çərşənbə axşamı mümkün olduğundan, ən geci əvvəlki həftənin cümə gününə qədər icazə alınmalıdır. Bazar ertəsi axşama qədər Qurban Hüseynov və İsmət Cavadov tərəfindən şəxsi məşqçilərə təsdiq haqqında məlumat verilir.

3. Əgər şəxsi məşqçi hansısa məsələləri milli komandaların baş məşqçisi və ya hər hansı digər məşqçisi ilə müzakirə etmək istəyərsə, həmən məşqçi ilə görüş təyin etməlidir. Yalnız məşq bitdikdən sonra (məşq zamanı qadağandır) görüşmək istədikləri məşqçi ilə iclas zalında görüşüb müvafiq müzakirəni edə bilərlər. Milli komandaların məşqçiləri ilə görüş haqqında Qurban Hüseynova və İsmət Cavadova müvafiq surətdə öncədən məlumat verilməlidir.

4. Şəxsi məşqçilər aydın şəkildə, Beynəlxalq Cüdo Federasiyası, Avropa Cüdo Birliyi, Azərbaycan Milli Anti-Doping Agentliyi, Dünya Anti-Doping Agentliyi və Azərbaycan Cüdo Federasıyasının siyasətlərinə əməl etməlidirlər. Bunlara əməl edilməzsə, həmən şəxsi məşqçinin milli komandaların idmançıları ilə əlaqəsinə, milli komandaların Təlim-Məşq Mərkəzinə daxil olmasına və milli komandaların hər hansı fəaliyyətində iştirakına qadağa qoyulacaqdır.

5. Federasiya hər hansı şəxsi məşqçinin, milli komandaların məşqçilərinin ideyalarına qarşı işlədikləri, milli komandaların məşqçilərinin fəaliyyətinə qarşı təbliğat apardıqları barədə məlumat alarsa, həmən şəxsi məşqçinin milli komanda ilə bağlı bütün fəaliyyətlərdə iştirakı qadağan ediləcəkdir. Hər hansı şəxsi məşqçi milli komandaların məşq proqramına qarşı çalışarsa və ya media, sosial şəbəkələrdə əks və mənfi rəy bildirərsə, milli komanda ilə əlaqəsi kəsiləcək və verilən mükafatlardan məhrum ediləcəkdir.

6. Əmrin icrasına nəzarəti özümdə saxlayıram.

**Baş katib** R. Rəsullu **Rəşad Rəsullu**